## “Poçt haqqında” Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə[1]

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

“Poçt haqqında” Azərbaycan Respublikası Qanununun icrasını tə min etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. “Poçt haqqında” Azərbaycan Respublikası Qanununun 15.7-ci maddəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi həyata keçirir;

1.2. həmin Qanunun 25.4-cü maddəsində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının *Nəqliyyat,* Rabitə və *Yüksək Texnologiyalar* Nazirliyi həyata keçirir.[2]

2. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 dekabr 2004-cü il
171

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 11 mart 2010-cu il tarixli **229** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti 12 mart 2010-cu il, 56, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 3, maddə 180**)
2. 2 sentyabr 2014-cü il tarixli **247** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 09, maddə 1027**)
3. 7 avqust 2017-ci il tarixli **1574** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 8 avqust 2017-ci il, 170, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 8, maddə 1521**)

**FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 11 mart 2010-cu il tarixli **229** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti 12 mart 2010-cu il, 56, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 3, maddə 180**) ilə adından, preambulasından və 1.1-ci bəndindən “**rabitəsi**” sözü çıxarılmışdır.

[2] 2 sentyabr 2014-cü il tarixli **247** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 09, maddə 1027**) ilə 1.2-ci bəndində “**İnformasiya Texnologiyaları**” sözləri “**Yüksək Texnologiyalar**” sözləri ilə əvəz edilmişdir.

7 avqust 2017-ci il tarixli **1574** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 8 avqust 2017-ci il, 170, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 8, maddə 1521**) ilə 1.2-ci bəndə “**Rabitə**” sözündən əvvəl “**Nəqliyyat,**” sözü əlavə edilmişdir.